Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Nəhəng fikir və əməl adamlarımızdan biri – Əhməd bəy Ağaoğlu

**Əhməd bəy Ağaoğlu 150 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Nəhəng fikir və əməl adamlarımızdan biri – Əhməd bəy Ağaoğlu:** Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 35 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Millət öz oğulları ilə özündən ayılır, qürbətə düşür, vətənində kimsəsiz olur; millət öz oğulları ilə döyülür, müti olunur, millət öz oğulları ilə gücünü toplayır, ayağa qalxır, üsyan edir və millət öz oğulları ilə özünə dönür – Əli bəy Hüseynzadə kimi, Əhməd bəy Ağaoğlu kimi və s. millət özünə dönəndə güclü olur-özü kimi... Azərbaycan xalqının milli mübarizə tarixində mühüm rol oynayan simalardan biri də Əhməd bəy Ağayevdir.

Azərbaycanın Əhməd bəy Ağaoğlu adında bir başıucalığı və bir göynərtisi var. Başıucalığı: böyük mütəfəkkir, böyük mübariz, böyük inqilabçı. İrticaya, millət düşmənlərinə qarşı amansız, dostluqda və millət sevgisində olduqca səmimi, sözü çəkinmədən üzə deyən, mərd, hətta canından artıq sevdiyi Atatürk ilə mübahisədə də bir addım geri çəkilməyən adam. Göynərtisi: bütün həyatını xalqının azadlığı uğrunda savaşa həsr etmiş bu adam Azərbaycandan "didərgin salındı". XX yüzilin əvvəllərində təkcə Azərbaycanda yox, Yaxın və Orta Şərqdə, Mərkəzi Rusiya və Qərbi Avropada tanınmış olsa da, Azərbaycanın bu görkəmli oğlu sonrakı nəsillər üçün itirildi. Azərbaycan 70 ildən sonra bu böyük oğlunu yenidən özünə "qaytara" bildi.

Ziyalı qələm sahibi, ictimai xadim, siyasətçi, jurnalist, pedaqoq, yazıçı və türkoloq Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi münasibətilə yazılmış bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə **"Türk qafalı cəsur adam"** adlanır və alimin nakam həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyatı

Əhməd bəy Ağaoğlu 1869-cu ildə Azərbaycanın Şuşa şəhərində dünyaya gəlib. Atası Mirzə Həsən bəy Qarabağın Qurdlar elindən idi. Bu tayfa XVIII əsrdə bütünlüklə etnik azərbaycan türklərinin yaşadığı Ərzurumdan köç edib Gəncəyə gəlmiş, daha sonra isə Qarabağa yerləşiblər. Atası Mirzə Həsən bəy varlı pambıqçı fermer idi. Ata tərəfinə Mirzə titulunun verilməsi ailənin ziyalı təbəqəsindən olduğunu göstərir. Xüsusən babası Mirzə İbrahim Şuşanın ən məşhur alimlərindən olub. O, xəttat idi və türk dilində şeirlər yazırdı. Eyni zamanda əmiləri də türk dilindən başqa fars, ərəb və rus dillərini bilirdilər. Anası Tazə xanım Şuşanın Sarıcaalı elindən Rəfi bəyin qızı, Zeynalabdin bəy Rəfibəyovun bacısı idi.

## Təhsili

Əhməd bəy Ağaoğlu xatirələrində göstərir ki, təhsilində anasının və əmisinin böyük rolu olub. Əmisi Mirzə Məmməd Əhməd bəyin müctəhid olmasını istəyərək ona 6 yaşından fars və ərəb dilləri üzrə müəllimlər tutur. İlk dövrlər məhəllə məktəbində təhsil alan Ağaoğlu anasının təşəbbüsü ilə gizlincə rusca dərslər də alır. Anasının dindar olmasına baxmayaraq axundlardan, mollalardan xoşu gəlmədiyini yazan Ə. Ağaoğlu anasının bu görüşlərinin onun təhsilinin istiqamətini Nəcəfdən, Kərbəladan Peterburqa, Parisə, doğru dəyişdiyini yazır.

1881-ci ildə Şuşada altı siniflik real məktəbi açıldıqdan sonra Qarabağ canişini müsəlman əhalini Xurşidbanu Natəvanın evinə toplayaraq uşaqlarını bu məktəbə qoymalarını istəyir, atası da canişinə söz verərək onu Şuşa real məktəbinə göndərir. Bu məktəbdəki müəllimlərindən ikisinin, tarix müəllimi olan Şineyovski və riyaziyyat müəllimi olan Palekarpın ona böyük

təsiri olmuşdur. Hər iki müəllim çar rejiminə qarşı idi və işlədikləri məktəbdə də inqilabi təbliğat aparırdılar. Ağaoğlu da həyatında ilk dəfə qərb ideologiyası ilə bu məktəbdə tanış olur. Xatirələrində Əhməd bəy yazır ki, bu məktəb şəhərin erməni məhəlləsində yerləşirdi. 45 şagirddən yalnız beşi müsəlman uşağı idi. Erməni şagirdlərin bu azlığa qarşı münasibəti çox aqressiv olmuş, müsəlmanları daim incitmişlər. Bu mühitə dözməyən şagirdlərin dördü məktəbi tərk etmiş, yalnız Əhməd təhsilini uğurla başa vura bilmişdir. Öz xatirələrində Əhməd bəy bu hadisələri belə təsvir edir: "Bu beş adamın illərlə davam edən təhsili zamanı erməni uşaqlarından çəkdiklərini sözlə ifadə etmək imkansızdır. Tənəffüsdə biz, beş türk uşağı, cəld tərpənib arxamızı divara dayamağı böyük bir fərasət hesab edirdik. Yüzlərlə erməni uşaqları birdən üzərimizə hücum edirlər, birisi başımızdan papağı alıb atır, digərləri təpiklərlə dörd, beş altun qiymətində olan Buxara dərisini torpaqlar üzərində yuvarlayırlar. Bəziləri qiymətli və çoxu dəvə yunundan tikilmiş paltarlarımızın ətəklərindən yapışırlar, o yan-bu yana çəkirlər, parçalayırlar, bəzəklərini sökürlər, müqavimət göstərmək istəsək, yumruq, şillə, təpiklər altında bizi əzirdilər. Bəzən birləşib üstümüzə bir böhtan atırlar, birləşib şahid olurlar. Bizi haqsız yerə cəzalandırırdılar. Yoldaşlarımdan çoxu dayana bilmədilər. Məktəbi tərk etdilər. Son sinfə qədər türklərdən bir mən dayana bildim".

Daha sonra orta məktəbin VI sinfini bitirən Ağaoğlu VII və sonuncu sinifləri Tiflisdəki 1 saylı gimnaziyada oxuyur. Özünün yazdığına görə Tiflis gimnaziyasında ancaq bir nəfər türk var idi ki, o da Ağaoğlu idi. Tiflisdə təhsil aldığı dövrdə dostlarının təkidi ilə "Narodnik" Cəmiyyətinin gizli toplantılarında iştirak edir. Bu toplantılar Ağaoğlunun düşüncəsində dərin izlər

buraxıb. Tiflisdə gimnaziyanı müvəffəqiyyətlə bitirdikdən sonra Ə.Ağaoğlu fərqlənmə diplomu və üç yüz rubl mükafatla Şuşaya qayıdır. Bütün yayı dayısı ilə birlikdə yaylaqda keçirdikdən sonra Peterburqa təhsil almağa gedir.

1887-ci ilin avqustunda ali təhsil almaq üçün Peterburqa gedən Ağaoğlu bir xristian ailəsinin evində kirayəşin olur. Həmin ailə Ağaoğlunun türk olduğunu biləndə çox təəccüblənir. Çünki o günədək ali təhsil üçün Peterburqa erməni və xristian əsilli digər xalqların gəncləri gəlirdi. Ailə türklərdən təhsil almaq üçün buraya gələn heç kimi tanımırdı. Ermənilərin və digər xristianların türklərdən əvvəl təhsil aldıqlarını bilən Ağaoğlu ailənin bu təəccübünə haqq qazandırırdı.

Peterburqda tanış olduğu qafqazlı gənclər Ağaoğlunu Qafqazlı Tələbələr Birliyinin yataqxanasına aparırlar. O, burada dörd nəfər türkün olduğunu öyrənir. Bu türklərdən biri sonralar Azərbaycanın Paris təmsilçisi olacaq Əlimərdan Topçubaşov, digəri isə keçmiş Qafqaz Şeyxülislamının oğlu Əli bəy Hüseynzadə idi. Digər iki türk tələbə isə yol mühəndisliyi ixtisası üzrə təhsil alırdılar. Ağaoğlu Texnoloji İnstitutunun bütün imtahanlarını uğurla verir. Yalnız sonuncu-cəbr imtahanından professorun verdiyi məsələni proqramdan kənar həll etməsi və professorun Ağaoğlunu yəhudi sanaraq həlli düzgün olduğu halda qəbul etməməsi Ağaoğlunu məyus etmişdi. Professorun bu davranışı gənc Ağaoğluda ruslara qarşı böyük nifrət hissi yaratmışdır.

## Yaradıcılığı

Fransada təhsil aldıqdan sonra geri qayıdıb 1896-cı ildə Şuşada ilk kitabxana açıb. 1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya gəlib, "Kaspi" qəzetinin baş redaktoru olub. O, həmçinin Ə.Hüseynzadə ilə "Həyat" qəzetinə də redaktorluq edib.

1905-ci ildə çar hökumətinə və daşnak ermənilərə qarşı mübarizə aparmaq üçün gizlin Difai təşkilatını qurub. Bir müddət sonra çar hökuməti tərəfindən təqib olunan Əhməd bəy aylarla dostlarının evində gizlin yaşadıqdan sonra həbs olunmamaq üçün 1908-ci ilin sonlarında İstanbula köçməli olur. Türk Ocağı milli hərəkatının aparıcı siması olan Ağaoğlu bu hərəkatın keçirilmiş konqresinə prezident seçilir. Sonradan gənc türklərin "İttihad və tərəqqi" partiyasına daxil olur. Süleymaniyyədə kitabxana direktoru, "Türk yurdu" jurnalının redaktoru olmaqla İstanbul universitetində rus dilindən dərs deyir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin köməyinə gəlmiş Qafqaz İslam Ordusu komandanının siyasi müşaviri olmuşdur. AXC dövründə Bakıda parlamentə üzv seçilir. Cümhuriyyətin Paris Sülh Konfrasında iştirak etmək üçün göndərdiyi nümayəndə heyətinin tərkibində Ağaoğlu da var idi. Lakin İstanbula çatanda "İttihad və tərəqqi" partiyasının digər rəhbərləri ilə birgə ingilislər tərəfindən həbs olunaraq Malta adasına sürgün olunur. Sürgündən qayıtdıqdan sonra kamalçılarla yaxınlaşaraq Ankara İnformasiya Agentliyinə rəhbərlik etmiş, "Hakimiyyəti-milliyyə!" qəzetinin baş redaktoru olmuş, ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə deputat seçildikdən sonra Mustafa Kamal Atatürkün xarici məsələlər üzrə siyasi məsləhətçisi olmuşdur.

## Paris dövrü

1888-ci ildə ali təhsil almaq üçün Parisə gedən Əhməd bəy burada hüquq məktəbinə daxil olmuş, 3 il sonra diplom almışdır. O, məşhur fransız şərqşünasları Ernest Renan (1823-92) və professor Ceyms Darmestete (1840-94) ilə tanış olur,

mühazirələrini dinləyir. Əhməd bəy 1891-1892-ci illərdə Sankt-Peterburq və Parisin məşhur Sorbonna universitetlərində təhsil alır. Tarix, Şərq dilləri və məzhəbləri şöbələrində oxuyur, dinlər tarixini öyrənir. Beş dilə mükəmməl şəkildə yiyələnən Əhməd bəy o zaman həm yerli, həm də əcnəbi mətbuatda maraqlı məqalələrlə çıxış etməyə başlayır. O, 1858-1917-ci illərdə məşhur Dürkheym sosiologiyasını mənimsəmişdir.

Əhməd bəy "Jurnal de Debat", "Revü Been", "Nouvye Revyü" kimi fransız mətbuat orqanlarında ictimai-siyasi mövzularda yazılarını nəşr etdirirdi. 1892-ci ildə şərqşünasların Londonda keçirilən Beynəlxalq konqresində "Şiə məzhəbinin mənbələri" mövzusunda məruzə etdi. Həmin məruzə Kembric Universitetinin xərci ilə bir neçə Qərb dilində çap olundu. Fransada qələmə aldığı yazılarını "Kafkaz", "Şərqi Rus" qəzetlərinə göndərirdi.

1894-cü ildə Qafqaza fransız dilini tədris etmək məqsədilə qayıdan ədib tezliklə Bakıya köçür. Fransada təhsil aldığı dövrdə Avropa demokratik ideyalarından və fransız şərqşünas-alimlərinin əsərlərindən təsirlənən Əhməd bəy tezliklə Azərbaycan xalqının milli özünüdərketmə və türkçülük ideyalarının yayılması işinə başlayır.

O, 1894-cü ildə Tiflis, sonra isə 1896-cı ildə Şuşa gimnaziyasında fransız dilindən dərs deyərək el arasında "Firəng Əhməd" ləqəbini alır. (Bu "Firəng"lik üzündən gələcək həyat yoldaşı Sitarə xanımın ailəsi ona əvvəlcə yox cavabı vermiş, lakin 1902-ci ildə onların evlənməsi baş tutmuşdu). Əhməd bəy Şuşada ilk dəfə qiraətxana-kitabxana açdı. 1897-ci ildə Əhməd bəyin həyatının Bakı dövrü başlayır. O, H.Z.Tağıyevin dəvəti ilə Bakıya gəlib, məktəbdə fransız dili müəllimi işləməklə yanaşı "Kaspi" qəzetinin baş redaktoru olur.

O, həmçinin Ə.Hüseynzadə ilə “Həyat” qəzetinə redaktorluq etmişdir.

Əhməd bəy əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni və təhsili inkişafından keçdiyini bildirirdi. Qadın azadlığı ideyalarını yayan və bunu azadlıq mücadiləsinin əsas faktoru kimi göstərən Ağaoğlu Azərbaycan ziyalıları arasında qadına bərabər hüquqların verilməsinə çağıran ilk ziyalılardan idi. 1901-ci ildə çapdan çıxan “İslam dünyasında qadın” adlı kitabında “azad qadınsız milli inkişaf ola bilməz” fikrini sübuta yetirir. Əhməd bəy Ağaoğlunun bu arzu və ideyaları tezliklə reallığa çevriləcəkdir (1918-ci ildə qurulmuş Şərqdə ilk demokratik cümhuriyyət Azərbaycan Demokratik Cümhuriyyətində o dövr nəinki şərqin, hətta qərbin ABŞ və Böyük Britaniya kimi qabaqcıl dövlətlərinə nümunə olacaq bir hadisə – Azərbaycan qadınına seçkilərdə səsvermə hüquqlarının verilməsi ilə Əhməd bəyin ideyaları gerçəkləşir).

Görkəmli publisistin anadan olmasının 150 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, oxucularla söhbət, icmal, dəyirmi masa, ədəbi-bədii gecə keçirilə bilər. Dəyərli qələm sahibi Əhməd bəy Ağaoğlunu sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: “Tarixə iz qoyanlar”, “Əhməd bəy Ağaoğlu”, “Fiziki və mənəvi həyatını millətinin azadlığı uğrunda paymal etmiş mücahid”, “Yeni türk hekayəçisi”, “Azərbaycanın mühacir ziyalılarından biri” , “Türk qafalı cəsur adam”, ““Tərəqqi” yə aparan ziyalı”, “Əhməd bəy Ağaoğlu fenomeni”, “Türkçülüyün patriarxı Əhməd bəy Ağaoğlu”, “Nəhəng fikir və əməl adamlarımızdan biri – Əhməd bəy Ağaoğlu”, “Türkçülüyün patriarxı Əhməd bəy Ağaoğlu”,

“Nəhəng fikir və əməl adamlarımızdan biri – Əhməd bəy Ağaoğlu”, “Ömrünün sonunadək türk olmaqdan qürur duyan və türklüyün vüqarını daim qoruyan şəxsiyyət”, “Fiziki və mənəvi həyatını millətinin azadlığı uğrunda paymal etmiş mücahid”, “İnsanlığın zənginliklərinə sahib olan ziyalı”, “Hürriyyət və demokratiya alimi” və s.


















## Görkəmli şəxiyyətlər Əhməd bəy Ağaoğlu haqqında

Onunla əməkdaşlıq etmiş bir adam kimi deyə bilərəm ki, o zamankı (XX əsrin əvvəllərindəki) qızğın illərdə Ağaoğlu Əhməd qədər heç bir kəs milli hərəkat və milli dava cəbhəsinin atəş xəttində bulunmamışdır.

**M. Ə. Rəsulzadə,**
*ictimai xadim*

Bu qafa ancaq bir türkdə ola bilər.

**M. K. Atatürk,**
*siyasətçi və dövlət xadimi*

O bütün türk dünyasının oğlu idi... Bir millət, vətən həyatda var olduqca Əhməd bəy Ağaoğlunun adı uca tutulacaq, Türk-İslam dünyası onu böyük ehtiramla, qədirbilənliklə yad edəcək, yaradıcılığı yeni-yeni incəliklərlə işıqlandırılacaq.

**Xaləddin Sofiyev,**
*kulturologiya elmləri namizədi*

Əhməd bəy Ağaoğlunun Cümhuriyyət dövründəki mücadiləsi də bu nöqtəyə çevrildi. Bütün çalışmalarında millətə dayanan dövlət görüşünü fərdin haqq və hürriyyətlərini qoruyan dövlət deyə mənimsəyir, hər vəzifənin qarşılığında bir haqq vardır, tezisini müdafiə edirdi. Bu tezis Əhməd bəy Ağaoğlunun fikir və siyasət həyatının son mərhələsidir.

**Şəfa Nihal,**
*türk tədqiqatçı, alim*

O, heysiyyətli və möhtəşəm bir mütəffəkkirdir, mərd və cəsur mübarizə adamı, pofessor və maarifçi, usta qəzetçi-yazar, dürüst

siyasətçidir. Hürriyyət və demokratiya aşiqi bir insan, milliyyətçi və inqilabçı ziyalı, inanılmış və vəfalı dost, yaxşı ailə başçısı, şəfqətli atadır. Deyə bilərik ki, o, insanlığın bütün üstün cəhətlərini və məziyyətlərini öz simasında toplamış böyük insan, heykəlləşmiş şəxsiyyətdir.

**Fəxrəddin Gülsevən,**
*türk tədqiqatçı, alim*

Ağaoğlu türk və yazar olaraq yüz illərlə içimizdə yanan milliyyət şüurunu oyandırmaq üçün səsi gəldikcə bağırdı. İnsan olaraq Ağaoğlu təmizliyin və hürriyyətin biri-birindən ayrılmadığı vicdanının təlqinlərinə görə fəzilətli və hürr insanlar ölkəsinin arxasınca qanadlandı.

**Peyami Səfa**,
*türk yazıçısı*

O, insanlığın az rastlaşdığı zənginliklərdən idi. Alimdi, çalışqandı, mübarizdi, zəki idi, faydalı idi. Lakin mən bunların heç birinin üzərində durmuram. Ağaoğlunun əsl qiymət verdiyim tərəfi xarakterinin möhtəşəmliyi idi. O, insan idi, bütöv insan idi.

**Şükufə Nihal,**
*türk yazıçısı, tədqiqatçı*

Ağaoğlular ailəsi isə arxalarında böyük, zəngin bir irs buraxıb. Bizlər isə hələ də bu irsdən yetəri qədər məlumatlı deyilik.

**Dilqəm Əhməd**
*jurnalist, yazar*

Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri **“Fiziki və mənəvi həyatını millətinin azadlığı uğrunda paymal etmiş mücahid”** adlı *dəyirmi masa* ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Ə.Ağaoğlunun yaradıcılığı haqqında qısa məlumat verir.

*Kitabxanaçı:* Yalnız Azərbaycanın deyil, bütün Şərqi-İslam dünyasının möhtəşəm şəxsiyyətlərindən biri olan Əhməd bəy Ağaoğlunun həyat və yaradıcılıq yolu özünəməxsusluğu və bənzərsizliyi ilə seçilməkdədir.

Ağaoğlu Transqafqaziya seymində keçirilən seçkilərdə müsəlman fraksiyasından üzv seçilir və bu müddətdəki fəaliyyəti ilə 1905-ci ildə etnik erməni-müsəlman qarşıdurmalarının qarşısının alınmasında böyük rol oynamışdır. Bir qədər sonra onun millətçi fikirlərindən və sosial inqilabi düşüncələrindən təşvişə düşən erməni daşnaklarının təhdidlərinə cavab olaraq türk-müsəlman xalqlarının hüququnu qorumaq üçün “Difai” adlı özünümüdafiə təşkilatı yaradır. Çar Rusiyasının erməni hakimiyyət nümayəndələri Qarabağda etnik təmizləmə işinə başladığı bir dövrdə “Difai” təşkilatı bu siyasətin qarşısını almaq vəzifəsini və Azərbaycan türklərinin milli təhlükəsizliyinin təmin olunmasını öz üzərinə götürdü. Lakin ruslar bunu qəbul etmədilər. Osmanlı imperiyasında geniş vüsət almış “Gənc Türk” inqilabi hərəkatından təşvişə düşmüş çar qüvvələri onun kitab və məqalələrinə “Pan-Türkist” adını verərək təqib etməyə başladılar. Aylarla dostlarının evində gizlin yaşayan Əhməd bəy təqib və mümkün həbslər səbəbindən 1908-ci ilin sonlarında Türkiyəyə-İstanbula köçməli olur. Türk Ocağı türk milli hərəkatının aparıcı siması olan Ağaoğlu bu

hərəkatın keçirilmiş konqresində prezident seçilir. 1910-cu ildə isə ailəsi Türkiyəyə köçür.

Ə.Ağaoğlu 1909-cu ilin əvvəllərində İstanbulda maarif sahəsində müfəttiş, sonra isə Süleymaniyyə kitabxanasının müdiri vəzifəsində çalışır. 1909-cu ilin oktyabrından İstanbul darülfünunda Türk-Monqol tarixindən və rus dilindən dərs deyir. Bu dövrdə Əhməd bəyin türkçülük ideyaları onun fəaliyyətinin əsas istiqamətinə çevrilir. O, 1912-ci ildə istefa verərək "İttihad və Tərəqqi" firqəsinə daxil olur. Həmin il keçirilən seçkilərdə Afyon-Qarahisardan Osmanlı parlamentinə deputat seçilir. 1912-ci ildə Ə.Ağaoğlu iki dəfə yazdığı məqalələrə görə tutulur və tezliklə də azad edilir.

1915-ci ildə Osmanlı Məclisi Məbusanına (Millət Məclisi) Afyon nümayəndəsi olaraq daxil olan Əhməd bəy eyni zamanda "İttihad və Tərəqqi" təşkilatının "Mərkəzi Ümumisinin" üzvü olmuşdur.

Azərbaycanda Şura hökuməti qurulduqdan sonra Əhməd bəy yenidən Türkiyəyə, bu dəfə Ankaraya köçməli olur. Türkiyədə jurnalist və siyasi fəaliyyətini davam etdirən Əhməd bəy mətbuat bürosunun direktoru, Türkiyənin "Hakimiyyəti-Milliyə" qəzetinin baş redaktoru olmuşdur.

Türkiyədə yaşayan Ə.Ağaoğlu Azərbaycanla əlaqəni kəsməmişdi. 1915-ci ildə o, Rusiyada yaşayan milli azlıqların Lozannada keçirilən konfransında Azərbaycanın təmsilçisi kimi çıxış etmişdir. Birinci dünya müharibəsi dövründə ABŞ prezidenti V.Vilsona ünvanlanmış Rusiya müsəlmanlarının haqlarının qorunması müraciətinə imza atanlardan biri də Əhməd bəy idi.

## AXC dövründə Ə. Ağaoğlu

1918-ci il 28 mayda Azərbaycan İstiqlal Bəyannaməsini elan etdi. Yeni qurulmuş hökumət xalqı fiziki məhvdən qurtarmaq üçün Osmanlı Türkiyəsinə üz tutur. Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa Azərbaycana göndərilir. Doqquz il ayrılıqdan sonra Ə. Ağaoğlu Nuru Paşanın müşaviri kimi Azərbaycana göndərilir. 1918-ci ildə Ə. Ağaoğlu Gəncədə olarkən cəmi iki nömrəsi işıq üzü görən "Türk sözü" qəzetini nəşr etdirir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin üzvü seçilir. 1918-ci il dekabrın 26-da Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfrasında iştirak etmək üçün göndərdiyi nümayəndə heyətinin tərkibində Ağaoğluda var idi.

## Sürgün olunduğu illər

1919-cu il Azərbaycan nümayəndə heyəti İstanbula gedir. Azərbaycana qarşı Avropa və Amerikada ermənilərin apardığı təbliğat kompaniyasının gedişində ya "Azərbaycan" adlı dövlətin mövcud olmadığı "əsaslandırılır", ya da Azərbaycan Antantaya qarşı vuruşmuş məğlub Türkiyənin ayağına yazılırdı və bütün vasitələrlə rəhbər xadimlərə Azərbaycan haqqında qərəzli məlumatlar verilirdi. İlkin addım kimi onlar Ə.Ağaoğlunun İttihad və Tərəqqi komitəsinin üzvlərilə birlikdə həbs edilib ingilislərin nəzarəti altında olan Malta adasına sürgün edilməsinə nail oldular. Azərbaycan nümayəndə heyəti Türkiyədə olduğu dövrdə ehtiyac və çətinliklər içərisində yaşayan Ə. Ağaoğlunun ailəsinə 150 türk lirəsi həcmində maddi yardım göstərdi. Əhməd bəy Malta adasında çətin şəraitə baxmayaraq, yaradıcılıqla məşğul olurdu; "Üç mədəniyyət" adlı məşhur əsərini də burada yazdı.

Malta məhbuslarını xilas etmək üçün həm Azərbaycan hökuməti, həm də Ankara hökuməti ingilislərlə danışıqlar aparırdılar: Ə. Ağaoğlunun dünyagörüşündə Malta sürgünü dövründə müəyyən dəyişikliklər əmələ gəlmişdi. Azərbaycan hökumətinin başçısına 1921-ci il may ayının 21-də yazdığı məktubundan dəyişikliyi görmək mümkündür. Əhməd bəy əsirlikdən qurtarıb İstanbula gələn zaman N.Nərimanovdan məktub alır. Nərimanov Ağaoğlunu Azərbaycana dəvət edir və ona yüksək bir vəzifə verəcəyini vəd edir. Lakin Ağaoğlu İstanbulda Malta məhbuslarının azad olunmasında Ankaranın Böyük Millət Məclisi Hökumətinin və şəxsən də Atatürkün xidmətini bildikdən sonra özünə mübarizə yeri olaraq Türkiyə, tərəfdar kimi də Mustafa Kamal və onun silahdaşlarını seçir.

Ə. Ağaoğlu 1921-ci ildə Mətbuat İnformasiya idarəsinin baş müdiri vəzifəsinə təyin edilir. Əhməd bəy bu dövrdə "Hakimiyyət-milliyət" qəzetinin redaktoru vəzifəsini yerinə yetirərək yeni Milli hökumətin qurucusu Atatürkün ideyalarını təbliğ etmiş, onun yaxın məsləhətçisi kimi geniş fəaliyyət dairəsində çalışmışdır. O, Qarsdan TBMM-nə 2 dəfə deputat seçilir; ikinci dönəm 1923-1927-ci illəri əhatə edirdi.

Ə. Ağaoğlu İstanbul Universitetində dərs deməklə bərabər, elmi və ədəbi-bədii yaradıcılıqla da məşğul olur. O, 20-30-cu illərdə "Hindistan və İngiltərə", "Sərbəst insanlar ölkəsində", "Dövlət və fərd", "Türk təşkilatı əsasiyyəsi", "Türk hüquq tarixi", "Mən nəyəm", "İran və inqilab", "Könülsüz olmaz", "İxtilalmı və İnqilabmı", "Sərbəst firqə xatirələri" kimi əsərlər yazmışdır. Onun sayəsində rus alimi Kuropatkinin "Etika" əsəri tərcümə edilərək nəşr olunmuşdur. Bundan başqa, o, "Yakutlar" əsərini rus dilindən türkcəyə çevirmişdir. Ə.Ağaoğlu "Axın" qəzetinin baş redaktoru olmuşdur.

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi *"Hekayələr, memuarlar"* adlı ***kitab müzakirəsi*** də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Ə.Ağaoğlunun bir neçə kitabını və eləcə də "Seçilmiş əsərləri" adlı kitabını və eyni zamanda Ə.Ağaoğlu haqqında yazılmış müxtəlif adda kitabları müzakirə edə bilər:

*Kitabxanaçı: "İslamiyyətdə Qadın" Tiflis, 1901-ci il.* Qadınların İslamdan əvvəl və sonrakı vəziyyətindən bəhs edən bu əsərdə Əhməd Ağaoğlu İslam mənbələrinə əsaslanaraq onların tarixi proseslərdəki iştirakına toxunmuş və XX əsrin əvvələrində müxtəlif cəmiyyətlərdə qadın hüquqları məsələsini tədqiq etmişdi. 1901-ci ildə Tiflisdə "Kavkazski vestnik" jurnalının 3-cü sayında rus dilində çap olunan bu əsəri Həsən Əli Ediz türk dilinə çevirmişdir. Bu tərcümə ilk dəfə 1959-cu ildə İstanbulda çap olunmuşdu. Əsər sonralar "Birey Toplum Yayınları" arasında yenidən nəşr olunmuşdu.

*Türk Təşkilat-i Əsasiyəsi, Ankara, 1925-ci il. Əhməd bəy Ağaoğlunun Ankara Universiteti Hüquq Fakültəsindəki mühazirələrindən qeydlərdir.*

*Üç Mədəniyyət, İstanbul, 1927-ci il.* Əhməd bəy Ağaoğlunun Maltada əsirlikdə olduğu vaxtlarda yazdığı müxtəlif mövzulardakı yazıları sonralar – 1927-ci ildə "Üç Mədəniyyət" adı altında toplanmışdır. Əsərdə müxtəlif mövzular üzrə başlıqlar verilmişdir: "Üç Mədəniyyət, Din, Əxlaq, Fərd, Ailə, Cəmiyyət, Dövlət, Hökumət". Bu yazılar kitab şəklində çap olunmamışdan əvvəl "Türk Yurdu" dərgisində silsilə olaraq dərc olunmuşdur. Əsər ilk dəfə kitab şəklində 1927-ci ildə nəşr olunmuşdur. Sonralar bir neçə dəfə çap edilmişdir. "Üç mədəniyyət" əsərində dünya sivilzasiyasının beşiyi olan Şərqin

tənəzzülünün səbəbləri araşdırılır. Əsər geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.
*"İngiltərə və Hindistan" İstanbul, 1929-cu il.* Əhməd bəy Ağaoğlu bu əsərində İngiltərənin idarəetmə və dövlət təşkilatlarındakı uğurların səbəbini açıqlayır. Əsərdə Ağaoğlu İngiltərənin özündən böyük ölkələri, xüsusilə Hindistanı necə müstəmləkəsinə çevirdiyini izah edir. Kitab ilk dəfə İstanbulda Cümhuriyyət mətbəəsində 1929-cu ildə çap edilib.
*Sərbəst İnsanlar Ölkəsində, İstanbul, 1930-cu il.* Əhməd bəy Ağaoğlunun alleqorik əsərlərindən biridir. Əsərdə müəllif əsarət zəncirlərini qıraraq qaçan bir Türkün demokratik ölkəyə gəlməsi və bu ölkənin vətəndaşı olması üçün nələr etməli olduğunu göstərir. Ə.Ağaoğlu "Sərbəst İnsanlar Ölkəsi" deyə adlandırdığı bu xəyali ölkənin başqalarının hüquqlarına sayğı göstərən, qanunlarla idarə olunan bir yer olduğunu göstərir. Ölkənin yaşayış tərzi, qanunları əsərdə utopik mənada şərh olunur.
*"Hüquq Tarixi" İstanbul, 1931-ci il.* Əhməd bəy Ağaoğlunun Hüquq fakültəsində 1931-1932-ci tədris illərində keçdiyi dərslərin bəzi məqamlarının toplandığı kitabdır.
*"Dövlət və Fərd" İstanbul, 1933-cü il.* Əhməd bəy Ağaoğlunun "Cümhuriyyət" qəzetində "Kadro" dərgisi və "Kadro" hərəkatı ilə bağlı çap olunmuş məqalələrinin toplusudur. 1932-ci il noyabrın 13-də "Cümhuriyyət" qəzetində çap olunan bu məqalələr silsiləsinin ilk yazısının başlığı – Dövlət və Fərd sonralar kitabın adı olmuşdur. Məqalələr silsiləsi 14 yazıdan ibarətdir.
*"1500 ilə 1900 arasında İran" Ankara, 1934-cü il.* XVI əsrin əvvəllərindən 1896-cı ilə qədərki İran tarixi və İran tarixində Türklərin rolu mövzusundan bəhs edir.

*İran və İnqilabı, Ankara, 1941-ci il.* XVI əsrdən 1925-ci ilə qədərki İran tarixindən və İran şahı Rza Pəhləvi dövründə baş vermiş tarixi hadisələrdən bəhs edir. Əslində bu, 1500 ilə 1900 arasında İran sərlövhəli əsərə 1896-cı ildən sonrakı hadisələrin əlavə edilərək genişləndirilmiş formasıdır.

*"Mən nəyəm" İstanbul, 1939-cu il.* Əhməd bəy Ağaoğlu 1936-cı il sentyabrın 5-də "Cümhuriyyət" qəzetində bu başlıqla çap olunan beş məqalədən ibarət yazı silsiləsini 1939-cu il dekabrın 19-da eyni adla əlavə dörd məqalə yazaraq davam etdirmişdir. Övladları Ə.Ağaoğlunun ölümündən sonra dərc olunmamış üç məqaləsini də əlavə edərək on iki məqalədən ibarət "Mən nəyəm" adlı kitab çap etdirmişlər. Alleqorik əsərdir. Əsərdə bölmələrdən biri "Tanrı Dağında" adlanır. Əhməd Ağaoğlunun "Cümhuriyyət" qəzetində əski Türk yaşayışına dair yazdığı məqaləsi sonralar "Mən nəyəm" adlı əsərində eyni adla çap olunmuşdur. Əhməd Ağaoğlu qədim Türk yaşayışına dair məlumatları rus alimi Serejovskinin "Yakutlar" əsərindən əldə etmişdir. Bu yazı da alleqorik əsərdir.

*"Könülsüz Olmaz" Ankara, 1941-ci il.* Maltada sürgün günlərində yazılmış didaktik xatirələrdir. Əhməd bəy Ağaoğlunun alleqorik əsərlərindən biridir.

*"İhtilal mı İnqilab mı" Ankara, 1942-ci il.* Əhməd bəy Ağaoğlunun "Böyük Zəfər" dən öncə Anadoluda başlayan və davam edən hərəkatın yeni dövlət qurmaq prinsipinə əsaslandığını və Milli Qurtuluş Mübarizəsi apardığını nəzərə çatdırmaq məqsədilə yazılmış məqalələrindən ibarət əsəri 1922-ci ilin may-avqust aylarında "Hakimiyyət-i Milliyə" qəzetində dərc olunmuşdur. Bu məqalələr ölümündən sonra toplanaraq kitab şəklində çap olunub.

*“Sərbəst Firqə Xatirələri” İstanbul, 1969-cu il.* 1930-cu ildə təşkil olunan Sərbəst Cümhuriyyət Partiyasına necə daxil olduğundan, o günlərin siyasi mühitindən, Sərbəst Cümhuriyyət Partiyasının hədəflərindən və düşdüyü vəziyyətdən bəhs edən xatirələrdir.

**Haqqında yazılmış kitablar**

*“Türkçülüyün patriarxı Əhməd bəy Ağaoğlu” Atamdan xatirələr Ankara, 1940.*

Kitab Səməd Ağaoğlu tərəfindən atasının ölümünün birinci il dönümündə 1940-cı ildə Ankarada çap edilib. Kitab üç hissədən ibarətdir. Birinci hissə Səməd Ağaoğlunun atası haqqında xatirələrindən, ikinci hissə Əhməd bəy Ağaoğlunun öz uşaqlıq və gənclik illəri xatirələrindən üçüncü hissə isə Əhməd bəy öldükdən sonra haqqında yazılan yazılardan ibarətdir.

*“Atamın dostları İstanbul” 1998.* Yazıçı, siyasətçi və dövlət xadimi Səməd Ağaoğlu tərəfindən yazılan “Atamın dostları” kitabında atası, Əhməd Ağaoğlunun türkçülük hərəkatında, sənət və siyasət aləmində, yeni Türkiyənin qurulması uğrunda mübarizədə çiyin-çiyinə addımladığı bir sıra görkəmli şəxsiyyətlərin portretləri yaradılıb. Müəllifin ad çəkmədən son dərəcə səciyyəvi cizgilərlə rəsm etdiyi bu portretlər özlərinin, eləcə də Əhməd Ağaoğlunun həyatının, mübarizə və ideallarının bir sıra xüsusiyyət və keyfiyyətlərini aşkara çıxarır. Kitab 1998-ci ildə İstanbulda “İletişim Yayıncılık” nəşriyyatı tərəfindən, 2016-cı ildə isə Bakıda Qanun Nəşriyyatı tərəfindən çap edilib.

“Türkçülüyün patriarxı Əhməd bəy Ağaoğlu Bakı” 2018-ci il Kitab, 2018-ci ildə tarix elmləri doktoru, Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tədqiqatçısı, Azərbaycan xalqının milli

məfkurəsinin formalaşması məsələləri ilə bağlı bir neçə monoqrafiyanın müəllifi olan Aydın Balayev tərəfindən yazılan bu əsər Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə nəşr edilib. Müəllif əsərdə qeyri-adi istedada malik bu şəxsiyyət barədə bioqrafik məlumatları, sadalamaqla kifayətlənməyərək, həmçinin geniş sənədli materiallara əsaslanaraq Əhməd bəy Ağaoğlunun ictimai-siyasi baxışlarının təkamülünü konkret zaman və məkan kontekstində izah edib. Kitab rus dilindədir və tarixçilər, etnoloqlar, politoloqlar, eləcə də milli tariximizlə maraqlananlar üçün nəzərdə tutulub.

Bundan sonra kitabxanaçı Əhməd bəy Ağaoğlunun kitablarının sərgiləndiyi kitab sərgisinə yaxınlaşaraq sərgidə yer almış kitabların da annotasiyası ilə oxucuları tanış edir. İlk kitab Səməd Ağaoğluna mənsub "hekayələr, memuarlar" adlanır. Səməd Ağaoğlu (1909, Bakı-1981, İstanbul) Azərbaycan əsilli müasir türk yazıçı və dövlət xadimidir. XX əsrdə Azərbaycanın və Türkiyənin ictimai-siyasi fikir tarixində mühüm yer tutan Əhməd Ağaoğlunun ailəsində doğulmuş, Türkiyə və Fransada təhsil almışdır. Türkiyədə çağdaş memuar ədəbiyyatının və psixoloji nəsrinin görkəmli nümayəndələrindən biri kimi tanınır. Əsərlərindən seçmələr Azərbaycanda ilk dəfə nəşr edilir. Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

Növbəti kitab Əhməd bəy Ağaoğlu Azərbaycanın və Türkiyənin, bütünlükdə isə çağdaş türk-islam dünyasının mədəniyyət və ictimai fikir tarixinə çoxcəhətli və ensiklopedik şəxsiyyət kimi daxil olmuşdur. Onun təxminən yarım əsr müddətində Azərbaycan, türk, rus, fars, fransız dillərində yazdığı əsərlər XX əsr Azərbaycan ədəbi-bədii və ictimai-siyasi fikrinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Kitaba Əhməd bəy Ağaoğlunun zəngin yaradıcılığından bir sıra bədii-fəlsəfi əsərləri və məqalələri daxil edilmişdir. Sərgidə yer alan kitablardan biri də “XX əsrdə repressiyaya məruz qalanlar” adlanır. Fədakar tədqiqatçı, arxiv bilicisi Aslan Kənanın böyük axtarışlar və zəhmət sayəsində yazıb oxucuya təqdim etdiyi “XX əsrdə repressiyaya məruz qalanlar” kitabı bu dövrün şəxsiyyətlərinin talelərindən bəhs edən dəyərli araşdırmalar toplusudur. Kitabda XX əsrdə repressiyaya məruz qalmış məğrur insanların faciəli, fəqət şərəfli taleyindən bəhs olunur.

Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi ilə əlaqədar kitabxanada keçirilə biləcək tədbirlərdən biri də ***konfransdır.*** *“İnsanlığın zənginliklərinə sahib olan şəxsiyyət”* başlıqlı konfransda alimlər, tarixçilər, tədqiqatçılar, folklorşünaslar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edə bilərlər. Konfransda Əhməd bəy Ağaoğlunun həyat və yaradıcılığı, keçdiyi şərəfli ömür yolu haqqında qonaqlara geniş məlumat verilir. Konfransın ikinci hissəsində isə ali məktəb tələbələri məruzəçi qismində çıxış edirlər.

***I məruzəçi:*** İctimai xadim, siyasətçi, jurnalist, pedaqoq, yazıçı və türkoloq Əhməd bəy Ağaoğlu Fransada təhsil aldıqdan sonra geri qayıdıb 1896-cı ildə Şuşada ilk kitabxananı açıb. 1897-ci ildə H.Z.Tağıyevin dəvəti ilə Bakıya gəlib, “Kaspi” qəzetinin baş redaktoru olur. O, həmçinin Ə.Hüseynzadə ilə “Həyat” qəzetinə də redaktorluq edib.

***II iştirakçı:*** Şuşaya qayıtdıqdan sonra Əhməd bəy Ağaoğlu Peterburqda birlikdə təhsil aldığı Fərrux bəy Vəzirovun qonağı olur. Burada o Fərrux bəyin əmisi qızı, məşhur Vəzirovlar nəslindən olan Sitarə xanımı görür və ona vurulur. Deyilənə görə, Əhməd bəy zamanın adətlərinə qarşı çıxaraq elçiliyini özü

edir. Bu isə Sitarə xanımın anasının xoşuna gəlmir və öz qızını Əhməd bəyə verməkdən imtina edir. Əhməd bəylə Sitarə xanım yalnız anasının ölümündən sonra 1902-ci ildə ailə həyatı qura bilirlər. İlk övladları olan Sürəyya Ağaoğlu 1903-cü ildə Şuşada dünyaya gəlir. 1909-cu ildə ailə təqiblərdən qurtulmaq üçün İstanbula köçür. Burada ailənin çətin günləri başlayır. Körpə övladları Bəşir dünyasını dəyişdikdən sonra Əhməd bəy 1918-ci ildə Nuru Paşanın müşaviri kimi Azərbaycana gəldiyi vaxt İstanbulda yenicə tikdirib köçdükləri ev yanıb, külə dönür. Bakıdan qayıtdıqdan sonra isə onu həbs edib Maltaya sürgün edirlər. Sitarə xanım böyük bir ailə ilə qərib diyarda Əhmədsiz qalır. Lakin təmkinli olan Sitarə xanım Əhməd bəyə ünvanladığı məktublarında da yaşadığı çətinlikləri ona hiss etdirmir. Övladlarını böyütmək üçün evdə nə varsa satıb onlara xərcləyir, lakin bu çətinliklərin heç birini Əhməd bəyə bildirmir. Sitarə xanım 1933-cü ildə 52 yaşında vəfat edir. Əhməd bəy və Sitarə xanımın 7 övladı olub. Vəzir və Bəşir kiçik yaşlarında vəfat etmiş, qalan 5 nəfərdən – Sürəyya, Tezər (Təzəxanım), Əbdürrəhman, Səməd və Gültəkin ali təhsil alaraq Türkiyənin ictimai-siyasi həyatında mühüm rol oynamışlar.

Sürəyya Ağaoğlu 1903-cü ildə Şuşada anadan olmuşdur. İstanbul Universiteti hüquq fakültəsinin ilk qız tələbəsi olub. Təhsilini bitirdikdən sonra şərqin, türk dünyasının ilk qadın vəkili, hüquqşünası olub. Sürəyya xanım Türkiyənin siyasi həyatında fəal iştirak etmiş, Yeni Türkiyə Partiyasının qurucularından olmuş, partiyanın İstanbul təşkilatına rəhbərlik etmişdir. O, Türkiyənin sosial-ictimai həyatında bir çox ilklərə imza atmışdır: Türkiyə Hüquqçu Qadınlar Dərnəyinin, Universitetli Qadınlar Dərnəyinin, Azad Fikirləri Yayma Dərnəyinin, Soroptimistlər İstanbul Klubunun, Türk-Amerikan

Universitetlər Dərnəyinin, Uşaq Dostları Dərnəyinin qurucularından olmuş, həmin dərnəklərin bir çoxuna rəhbərlik etmişdir. Dəfələrlə Beynəlxalq tədbirlərdə Türkiyəni təmsil etmişdir. Beynəlxalq Hüquqçular Birliyinin üzvü (1952), sonralar Hüquqçu Qadınlar Federasiyasının ikinci katibi olmuşdur. 1960-cı ildə Qadın Hüquqçular Birliyinin BMT Cenevrə Təşkilatı təmsilçisi seçilmişdir.

***III İştirakçı:*** Ağaoğlular ailəsi böyük bir tarixin canlı iştirakçısı olmaqla yanaşı, həm də bu tarixi yazan bir ailə kimi tanınır. Xüsusən, Səməd Ağaoğlunun siyasətdən çəkildikdən sonra yazdığı memuarlar dönəmi anlamaq, həm də bu ailənin yaşadıqları acıları, sevincləri bilmək baxımından önəmlidir.

S.Ağaoğlunun “Atamdan xatirələr”, “Atamın dostları”, “Strasburq xatirələri”, “Aşina üzlər”, “Dostum Menderes”, “Sovet Rusiya imperatorluğu” və digər memuarları həm Əhməd bəy Ağaoğlunu, həm də bu ailənin digər fərdlərinin nələr yaşadıqlarını əks etdirir. S.Ağaoğlu ilə yanaşı ailənin digər fərdi Sürəyya Ağaoğlu da “Bir ömür belə keçdi”, “Səssiz gəmini gözləyərkən” adlı memuarında Bakıdan Türkiyəyə köçmələrindən tutmuş 1980-ci illərə qədər geniş bir dövrü kitabına sığışdırıb.

…“Uşaqlığımı, İstanbuldan Bakıya getməyimizi yuxu kimi xatırlayıram. Əmim Hüseyn bəy anamı, Humay bibimi, atamın bir qardaşı oğlunu və ən böyüyü altı yaşında olan məni, qardaşlarımı qatarla yola saldı. Qohumlar ağlayırdı. Anam və Humay bibim də. Yenə xəyal kimi Batumdan gəmiyə minməyimizi və mənə çox qələbəlik görünən Qalata limanına gəlişimizi və o qələbəlik içərisində atamın bizə əl salladığını görmüş oluram. 1910-cu il idi” - yazır Sürəyya Ağaoğlu.

Əhməd bəy Ağaoğlunu tanıtmaq və yad etmək məqsədilə keçirilə biləcək tədbirlərdən biri *ədəbi-bədii gecədir.* **“Hürriyyət və demokratiya alimi”** adlı gecə keçirilən zalda Əhməd bəy Ağaoğlunun rəsmləri, onun öz fikirləri və digər görkəmli şəxsiyyətlərin Ə.Ağaoğlu haqqında söylədikləri yer alır. Gecədə şair və yazıçılar, sənət-söz adamları, alimlər və tarixçilər iştirak edirlər.

*I aparıcı:* Salam dəyərli qonaqlar. Biz buraya görkəmli alim, türkcü, tarixçi tədqiqatçılardan olan, belə demək olarsa, həyatını elmə qurban verən Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi münasibətilə yığışmışıq. Yalnız Azərbaycanın deyil, bütün Şərq-İslam dünyasının möhtəşəm şəxsiyyətlərindən biri olan Əhməd bəy Ağaoğlunun həyat və yaradıcılıq yolu özünəməxsusluğu və bənzərsizliyi ilə seçilməkdədir. Sovet siyasi rejiminin qadağa və unutqanlıq siyasəti nəticəsində uzun illər adı və əsərləri yasaq olunan bu qeyri-adi istedad sahibinin Azərbaycanın və Türk dünyasının dirçəlişi üçün edə bildikləri bir insanın cismani və mənəvi imkanlarından heyrətamiz dərəcə böyükdür. Təsadüfü deyil ki, onun nəhəngliyini təkcə dostları deyil, düşmənləri belə etiraf etməkdədirlər.

*II aparıcı:* Hələ də haqqı tanınmamış, böyük irsinə hələ də əlimiz yetməyən nəhəng fikir və əməl adamlarımızdan Əhməd bəy Ağaoğlu siyasi və fikir həyatımızda adı şükranla çəkilməli 3-5 adamdan biridir. Sovet dövründə onun haqqında yazılmamış deyil. Amma daim mənfi çalarda. Şükürlər olsun, bu böyük fikir və əməl adamı haqqında son illərdə bir neçə dəyərli əsər çap edilib. Obyektiv və həqiqət axtarışında olan araşdırıcılar onun həyatı və fikirləri haqqında heyranlıq və minnətdarlıqla yazmışlar. Bu kitablara dayanaraq onun haqqında yazı hazırlamaq nisbətən asanlaşıb. Bununla belə, Əhməd bəy o

qədər nəhəng şəxsiyyətdir ki, onun həyatındakı keşməkeşli olayları, epizodları, xüsusən konseptual fikirlərini kiçik bir yazıya sığışdırmaq mümkün deyil. Əhməd bəy Ağayev (Ağaoğlu) (1869-1939) XIX yüzilin sonlarından 1920-ci illərədək Azərbaycanda, sonra isə Türkiyədə siyasi və fikir həyatına yön verən şəxslərdən biridir.

*I aparıcı:* Politexnik institutunda oxumaq istəyi ilə Peterburqa gələn Əhməd bəy burada Qafqazdan olan 35-40 gənc arasında sonralar birlikdə çalışacaqları Əli bəy Hüseynzadə və Əlimərdan bəy Topçubaşov (Topçubaşı) ilə rastlaşır. Bu vaxt gənclər arasında xalqçı əhvali-ruhiyyə, rus ziyalılarının arasında isə aşırı millətçilik, o cümlədən antisemitizm çox yayğın idi. Oğlu Səməd Ağaoğlunun yazdığına görə, imtahan zamanı onu yəhudi sayan bir müəllimin qərəzli münasibəti nəticəsində imtahandan kəsilir. Bu haqsız münasibətdən qəzəblənən protest ruhlu gənc Əhməd bəy Ağayev ali təhsil almaq üçün az miqdarda vəsaitlə 1888-ci ilin yanvarında Parisə yola düşür. Bir müddət fransızca öyrənəndən sonra Sorbon Universitetinin Şərq dilləri fakültəsində mühazirələrə girir, daha sonra eyni zamanda hüquq fakültəsində oxuyur. Bu zaman Fransa 1870-71-ci illər savaşındakı uğursuzluğun travmasını yaşamaqda idi. İtirilmiş torpaqlar və zədələnmiş qürur hissi toplumda, ilk növbədə aydın kəsimdə güclü revanşist millətçilik doğurmuşdu. Əhməd Ağayevin dərslərinə ciddiyyətlə yanaşması və fövqəladə istedadı professorlarının da diqqətini çəkmiş, Parisin aydın salonlarına onun yol tapmasına nədən olmuşdu.

*II aparıcı:* Əhməd Ağayev (Ağaoğlu) haqqında maraqlı araşdırma aparmış A.Holly Shisslerin təsbitinə görə, gənc tələbəyə Paris həyatında fransızlardan ən çox üç şəxs-onun fars dili və tarixi professoru James Darmesteter, “La Nouvelle

Revue" dərgisinin redaktoru Juliette Adam, məşhur filosof və tədqiqatçı Ernest Renan təsir etmişdir.

Sorbon Universitetində təhsil aldığı dövrdə Əhməd bəy Yaxın Şərq haqqında çap edilmiş iki kitaba rəy yazır, bundan əlavə, Tiflisdə çıxan rusdilli "Kavkaz" qəzetinə məqalələr göndərir. Sonralar türkçülüyün tanınmış xadimi kimi məşhurlaşmış Əhməd bəyin Paris yazılarında "özünü doğma kültürü haqqında yazan fars kimi təqdim etməsi" A. Holly Shisslerin diqqətini çəkmişdir.

*I aparıcı:* Süráyya atası ilə bağlı xatirələrində onun sərt olduğunu yazır. Səməd Ağaoğlu da Əhməd bəyin bu təbiəti barədə bir neçə məqamda yazıb. S.Ağaoğlunun yazdığına görə, bir dəfə Atatürk onu, bacısı Tezeri və valideynlərini evinə yeməyə dəvət edir. Yemək vaxtı qarson boşqabı Atatürkün önünə qoymaq istəyərkən Atatürk Süreyyaya uzadır, o isə boşqabı alıb önünə qoyur. Daha sonra Atatürk digər boşqabı Tezerə uzadarkən etiket qaydalarını bilən bu bacı boşqabı alıb yenidən Atatürkə uzadır. Bu hal Əhməd bəyi qəzəbləndirir: "Getməzdən öncə Lətifə xanım "Evdə atandan çəkəcəyin var, sənə çox hirsləndi" deyərək güldü. Anamla, atam əsəbləşmək üçün evə çatmağı gözləmədilər. Atatürkün bizi evə aparmaq üçün verdiyi avtomobilə minər-minməz atam: "Hüquq fakultəsini bitirmisən, amma adam olmamısan. Dünyanın ən böyük adamlarından biri sənə servis edir, sən də alırsan".

Əhməd bəylə Atatürkün münasibətləri enişli-yoxuşlu idi. "Sərbəst firqə" məsələsində aldığı yara, yaşlı vaxtında çap etmək istədiyi qəzetin qapadılması onu çox üzsə də, Əhməd bəy Atatürkə qarşı hər zaman böyük hörmətlə yanaşmışdı.

Süreyya Ağaoğlu Atatürkün ölüm xəbərini eşitdikdən sonra evə gedərkən atasının ağladığını görür: "Evdə anamın

ölümündəki kimi bir matəm havası vardı. Atam yazı masasının üzərində dayanaraq hönkür-hönkür ağlayırdı: “O, böyük bir vulkan idi, bəzən alov fışqırırdı-mənə də fışqırırdı-amma gözəl bir alovdu”.

Atatürk ölən kimi onu sevməyənlər fürsət gözləyərək onun əleyhinə yazı yazmağa başlayırlar. Bu vaxt Əhməd bəy bir məqaləsində yazır: “Napoleon öldükdən sonra heç bir fransız onun əleyhinə yazı yazmağı ağlına gətirməmişdi”.

*II aparıcı:* Sərt xarakterə malik olan Əhməd bəy övladları üçün həddindən artıq qayğıkeş idi. Buna görədir ki, onların hamısının yüksək təhsil almasına çalışmış, qərbləşən Türkiyədə çağdaş insan olmaları üçün çalışmışdı. Sürəyya qardaşı Səmədin xəstələnməsi ilə bağlı maraqlı bir hadisəni nəql edir. Belə ki, bir dəfə Səməd xəstələnir və ağzından qan gəlir. Həkimlər diaqnoz qoya bilmədikləri üçün ailə təşvişə düşür. Məsləhət bilinir ki, başına buz qoyulsun: “O dövrdə isə buz bir lüks idi. Atam dəli kimi atına atladı və ətrafdakı dağlara gedərək buz və qar yığdı, çuvala doldurub gətirdi. Evin baxçasında bir çuxur qazdı, buzları ora basdırdı. Lazım gəldikdə oradan götürürdük. Atam uşaqlarına belə düşkün idi”.

*I aparıcı:* 1939-cu ilin mayın 19-u. Əhməd bəy xəstə yatağında yatır. Dostları, həkimlər başının üstündədir. Həkim olan qızı Gültəkin ona nar suyu gətirir. Əhməd bəy üzünü həkimlərə tutur: “İnsan hər zaman şampan içməz, qızımın hazırladığı bu məhlul hamısından gözəldir”.

Daha sonra övladlarının bibi kimi bildiyi Humayla yalnız qalmaq istəyir: “Mən ölürəm, sənə çox zəhmət verdim, hirsləndiyim zamanlar da oldu, haqqını halal et. Bu dəxildə 250 lirə var, məqalələrimin puludur. Cənazəmdə o pulu xərcləyin. Səni uşaqlara, uşaqları da sənə əmanət edirəm”.

Daha sonra üşüdüyünü deyir, iynə vurmaq istəyirlər, icazə vermir: “Artıq bu makina pərçim tutmaz”.

Qızı Tezer ağlayır. Üzünü ona çevirir: “Ağlama qızım, insan şüurlu bir makinadır, o da bir gün duracaq, əlbəttə. Mənə söz verin, heç bir güc sizi bir-birinizdən ayırmayacaq. Heç bir zaman doğrunu söyləməkdən çəkinməyin, doğruya doğru, əyriyə əyri deyin. Bibinizə, uşaqlarına yaxşı baxın”.

Sonra üzünü Sürəyyaya çevirir: “Söz ver, ağlamayacaqsan. Mənim vücudum sizlərlə, ruhum anam, atam, Sitarə ilə…Qarşımdadırlar… Onlarla bərabərəm” deyə fısıldayır…

*II aparıcı:* Əhməd bəyin və övladlarının arxivi Türkiyədə “Qadın əsərləri kitabxanası”ndadır. O kitabxanada bu ailəyə aid çoxlu fotolar, sənədlər, bəlgələr var. Xüsusən də, Əhməd bəyin qocalıq dönəminə aid xeyli fotolar var. Təəssüf ki, bir neçə tədqiqatçıdan başqa o arxivə yolu düşən yoxdur…

Eləcə də, Əhməd bəyin özünün və övladlarının əsərlərinin çox hissəsi hələ də Azərbaycan dilinə çevrilməyib. Halbuki, Əhməd bəyin deyimi ilə desək, insan şüurlu bir makina olsa da, bir gün dursa da, onun irsi hər zaman onu yaşadacaq. İnsan o zaman həqiqətən ölür ki, arxasında buraxmağa heç nəyi olmur.
Ağaoğlular ailəsi isə arxalarında böyük, zəngin bir irs buraxıb. Bizlər isə hələ də bu irsdən yetəri qədər məlumatlı deyilik.

*I aparıcı:* Həyatının son illərində zaman-zaman gələn şiddətli ağrılar Ağaoğlunu xeyli zəiflədir. Bütün dostlarını ən lazımlı anda tərk edən ürək, bu dəfə də onu tərk etməyə hazırlaşır və ilk dəfə idi ki, zəiflik göstərirdi. Ə. Ağaoğlu 19 may 1939-cu ildə beş övladının və yaxın adamlarının göz yaşları arasında dünyasını dəyişdi. Türk tədqiqatçısı Fəxrəddin Gülsevən yazır: “Əhməd bəy Ağaoğlu demək olar ki, gerçək bir ziyalının alın yazısı olan həyat səhifələrinin hər cürünü yaşadı. Acqaldı, susuz

qaldı. Lakin fikirlərindən, inanc və ideallarından əsla geri çəkilmədi. Onun dik və məğrur başı heç bir qüvvət önündə əyilmədi. Yalnız ölümə məğrur oldu, ölüm qarşısında susdu..."

*II aparıcı:* Əhməd bəy "əsir Azərbaycan" ın qurtuluş günü üçün yanıb-yaxılırdı. "O gün" üçün heç bir şeyini əsirgəməzdi. O, həyatda ikən "O gün" gərçəkləşməsə də "O günü" görür, onun bir vaxt gələcəyinə candan inanırdı. Və bu gün artıq "O gün" gəlib, Əhməd bəy Ağaoğlunun ruhu ilə qovuşub. Bir millət, vətən həyatda var olduqca, Əhməd bəy Ağaoğlunun adı uca tutulacaq, Türk-İslam dünyası onu böyük ehtiramla, qədirbilənliklə yad edəcək, yaradıcılığı yeni-yeni incəliklərlə işıqlandırılacaq.

**Millət öz oğulları ilə özünə dönür.**

## Ədəbiyyat siyahısı


***Əsərləri***

***Kitablar***

Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2007. - 392 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Sərbəst insanlar ölkəsində : Tarixi ədəbiyyat. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2001. - 80 s. : şək.

Üç mədəniyyət. - Bakı : Kitab klubu MMC, 2017. - 184 s. - Əhməd Ağaoğlunun əziz xatirəsinə ithaf olunur.

***Dövri mətbuatda***

**Ağaoğlu Ə.** Altmış yeddi il sonra : xatirələr // Azərbaycan. - 2019. - № 1. - S. 39-64.

***Haqqında***

***Kitablar***

**Ağaoğlu S.** Hekayələr, memuarlar. - Bakı : Ozan, 2008. - 346 s. : foto

**Ağaoğlu S.** Atamın dostları. - Bakı : Azərbaycan Tərcümə Mərkəzi, 2016. - 376 s. : portr.

**Mirəhmədov Ə.** Əhməd bəy Ağaoğlu. - Bakı : Ərgünəş, 2014. - 264 s. - (cildli).

**Sofiyev X.** Şərq-Qərb mədəniyyətləri və Əhməd bəy Ağaoğlu. - Bakı : Ocaq, 2004. - 240 s. : foto

***Dövri mətbuatda***

**Əhməd bəy Ağaoğlunun** 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (10 aprel 2019-cu il) // Azərbaycan. - 2019. - 11 aprel. - **№ 77**. - S. 2.

**"Atatürk və Əhməd** Ağaoğlu" kitabı çapdan çıxıb : filoloq-alim Vilayət Quliyevin "Atatürk və Əhməd Ağaoğlu" adlı monoqrafiyası Bakı Atatürk Mərkəzinin xətti ilə çap olunub // Mədəniyyət. - 2019. - 26 aprel. - № 31. - S. 7.

**Bayramova Z.** Azərbaycan ictimai fikir tarixinin görkəmli nümayəndəsi // Səs. - 2019. - 23 aprel. - № 72. - S. 11.

**Cəfərov N.** Əhməd Ağaoğlu... Atatürkün həm "dost"u, həm də "düşmən"i // Ədəbiyyat qəzeti. - 2016. - 3 dekabr. - № 46-47. - S. 4-5.

**Dünyaminqızı Q.** 1920-1950-ci illərdə "Füyuzat"a və füyuzatçılara münasibət // Füyuzat. - 2018. - № 1. - S. 26.

**Dünyaminqızı Q.** Arzusu çin olan fikir və əməl nəhəngi : O, mətbuatı cəmiyyətin barometri adlandırırdı // Kaspi. - 2019. - 23 aprel. - № 72. - S. 15.

**Dünyaminqızı Q.** Əhməd bəy Ağaoğlunu ram edən sevgi dolu böyük qadın // Kaspi. - 2016. - № 176 ; 17 noyabr. - № 187. - S. 15.

**Əhməd D.** Sonuncu Ağaoğlu // Kaspi. - 2018. - 10 fevral. - № 27. - S. 12-13.

**Fərəcova Z.** Əhməd bəy Ağaoğlu və onun "Hicrəti-Kubra" əsəri // Azərbaycan. : jurnal. - 2017. - № 6. - S. 169-183.

**Gəncəli M.** Yusif Vəzir Çəmənzəminli Əhməd bəy Ağaoğluna niyə müraciət etmişdi // Ədəbiyyat qəzeti. - 2016. - 19 noyabr. - № 43. - S. 21.

**Həşimzadə N.** Dünən, bu gün və həmişə // Ədəbiyyat qəzeti. - 2019. - 9 fevral. - № 5. - S. 25.

**İlyasov V.** Yüz əlli yaşlı böyük türk oğlu : Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə bu il Əhməd bəy Ağaoğlunun 150 illiyi təntənəli qeyd ediləcək // İki sahil. - 2019. - 13 aprel. - № 66. - S. 6.

**Ömərov V.** Əhməd bəy Ağaoğlunun dövlətçilik konsepsiyası // Səs. - 2017. - 10 avqust. - № 142. - S. 15.

**Ömərov V.** Əhməd bəy Ağaoğlunun hökumət və hakimiyyət prinsipləri // Səs. - 2017. - 2 avqust. - № 136. - S. 15.

**Ömərov V.** Əhməd bəy Ağaoğlunun mədəniyyət konsepsiyası // Səs. - 2017. - 6 sentyabr. - № 159. - S. 15.

**Ömərov V.** Əhməd bəy Ağaoğlunun millət konsepsiyası // Səs. - 2017. - 3 avqust. - № 137. - S. 15.

**Ömərov V.** Əhməd bəy Ağayevin Azərbaycan dövlətçilik və milli intibah tarixində rolu // Səs. - 2017. - 4 avqust. - № 138. - S. 15.

**Quliyev V.** Böyük yolun yolçusu : Əhməd Ağaoğlunun 150 illiyinə // Azərbaycan. - 2019. - № 1. - S. 36-38.

**Quliyev V.** Əzablı Paris yolçuluğu : (Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin Paris sülh konfransında iştirakla bağlı üzləşdiyi çətinliklər) // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 18-19.

**Quliyev V.** Nümayəndə heyyətinin taleyi // 525-ci qəzet. - 2018. - 5 may. - № 81. - S. 18-19. ; 12 may. - № 85. - S. 18-19.

**Quliyev V.** Parisə əzablı yol : Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin Paris sülh konfransında iştirakı ilə bağlı üzləşdiyi çətinliklər // Azərbaycan. - 2018. - № 5. - S. 7-34.

**Quluzadə V.** Məhəmməd Əmin Rəsulzadə Əhməd bəy Ağaoğlu haqqında // 525-ci qəzet. - 2018. - 10 mart. - № 46. - S. 18.

**Rəsulzadə M. Ə.** Ağaoğlu Əhməd // 525-ci qəzet. - 2018. - 10 mart. - № 46. - S. 18-19.

**Şamıoğlu Ş.** Əhməd Ağaoğlu Şərq və Qərb düşüncə sistemi qovşağında : Onun fikrincə, mənəvi dəyərlərin itirilməsi etnosun varlığını, dövlətçiliyin mövcudluğunu aşkar təhlükə altına atır // Kaspi. - 2019. - 1 may. - № 78. - S. 15 ; 2 may. - № 79. - S. 15.

**Süleymanlı M.** Balkan və I Dünya savaşı dövründə azərbaycanlıların Anadolu türklərinə qardaşlıq yardımları // Füyuzat. - 2016. - № 4. - S. 46-51. ; № 5. - S. 20-27.

**Süleymanlı M.** Əhməd bəy Ağaoğlu Malta sürgünündə : mühacir ömrü // Füyuzat. - 2016. - № 1. - S. 6-12. ; № 2. - S. 58-62 ; № 3. - S. 18-24.

**Tağısoy G.** Fədakar aydınlarımız millətin istiqlalı və istiqbalı yolunda : türkçülük ideologiyasının yaranması // Mədəniyyət.az. - 2016. - № 1. - S. 76-78.

**Tahirli A.** Osmanlı zabitindən Əhməd bəy Ağaoğluna məktub // Azərbaycan. - 2017. - 23 iyul. - № 157. - S. 6.

**Tahirli A.** Türkiyə tarixində iz qoyan bacılar : Əhməd bəy Ağaoğlunun qızları haqqında // Ədəbiyyat qəzeti. - 2016. - 23 yanvar. - № 3. - S. 22.

# Nəhəng fikir və əməl adamlarımızdan biri – Əhməd bəy Ağaoğlu

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 100
Çapa imzalanmışdır: 09.04.2019
Tirajı:100
Pulsuz